*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journa lof History and Idea*
*ISSN: 2148-2292*
*10 (2) 2023*
*https://doi.org/10.46868/atdd.2023.*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received: 10.10.2023*
*Kabul tarihi |Accepted: 30.10.2023*
*Yayın tarihi |Published: 10.11.2023*

**Sevinc Məmmədova**

*https://orcid.org/0000-0002-9900-0670*
*Azerbaijan National Academy of Sciences Academician Z.M. in the name of Bunyadov Institute of Oriental Studies, Azerbaijan, sevinc.mammedova81@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Məmmədova, S. (2023). Cümhuriyyətin yaranması ərəfəsində Şimali Azərbaycanda ictimai siyasi proseslər və İranın mövqeyi (fevral 1917-ci il – may 1918-ci il). *Akademik Tarih ve Düşünce Dergisi, Türkiye-Azerbaycan İlişkilerinin 100. Yılı Özel Sayısı, 10* (2), 677-687.

# Cümhuriyyətin yaranması ərəfəsində Şimali Azərbaycanda ictimai siyasi proseslər və İranın mövqeyi (fevral 1917-ci il – may 1918-ci il)

***Xülasə***

*Təqdim olunan məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin elan olunduğu (28 may 1918-ci il) ərəfdə Şimali Azərbaycanda gedən siyasi proseslərə İranın rəsmi dairələrinin münasibəti təhlil olunur. I Dünya müharibəsi və 1917-ci ildə çar Rusiyasında baş vermiş inqilabi hadisələr Şimali Azərbaycana da öz təsirini göstərdi. 1917-ci il Fevral inqilabından sonra öz fəaliyyətini bərpa etmiş "Müsavat" partiyasının başçılığı altında Azərbaycan milli hərəkatı Rusiyada demokratik federativ respublika yaradılması və Azərbaycana onun daxilində milli-ərazi muxtariyyəti verilməsi uğrunda mübarizəyə başlamışdı. Qeyd olunan dövrdə İran hakimiyyəti Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda cərəyan edən prosesləri diqqətlə izləyir, regionda baş verən hadisələrin İranın cənubuna sirayət etməsinin qarşısını almaq üçün müəyyən cəhdlər göstərirdi. Bəhs olunan dövrdə İranın Azərbaycanla bağlı mövqeyi və fəaliyyəti daha çox bu ölkənin ictimai və siyasi dairələrinin, mətbuatının Azərbaycandakı ictimai-siyasi hadisələrə münasibətində özünü biruzə verirdi. Onların diqqətini cəlb edən əsas məsələ Azərbaycanın müxtariyyəti məsələsi idi. Azərbaycanın milli demokratik qüvvələri tərəfinən "Azərbaycanın muxtariyyəti" məsələsinin gündəmə gətirilməsi ilk gündən İranda böyük əks-sədа doğurdu. İranın Cənubi Qafqazda fəaliyyət göstərən diplomatlarının yazışmalarında, eləcə də bu ölkənin müxtəlif mətbu orqanlarında Azərəbaycan müxtariyyəti ideyası kəskin tənqid olunurdu. Məqalədə bununla bağlı bir çox materiallar öz əksini tapmışdır.*

***Açar sözlər:*** *Şimali Azərbaycan, İran, inqilab, siyasi vəziyyət, İran mətbuatı*

# Socio-political processes in the Northern Azerbaijan in times of the establishment of the Republic and Iran's position on this matter (February 1917 – May 1918)

***Abstract***

*The present article deals with the position of Iran's official circles on the political processes taking place in the Northern Azerbaijan on the eve of the declaration of the Azerbaijan Democratic Republic (May 28, 1918). The World War I and the revolutionary events of 1917 in Tsarist Russia had their impact on The Northern Azerbaijan. After the 1917 February Revolution, the "Musavat" party restored its activity, took the reins of the Azerbaijani national movement in its hands and began the fight for the creation of a democratic federal republic in the Russian Empire and for the granting to Azerbaijan of national-territorial autonomy within it. Since the "Musavat" party insisted on granting autonomy to Azerbaijan and also had a great influence among the Muslim population, the Bolsheviks considered this party their most dangerous and powerful opponent. In the mentioned period, the Iranian authorities carefully monitored the processes in the South Caucasus, including the Northern Azerbaijan, and made certain attempts to prevent the events circulating in the region from spreading to the South of Iran. The presence of thousands of Iranian citizens in the Northern Azerbaijan, especially in Baku, made it impossible for Iran to ignore the course of events in the neighboring state. Iran's position and activities related to Azerbaijan in the described period manifest themselves more in the attitude of the social and political circles and are clearly revealed in the press of this country. After the fall of tsarism, the rise of the national movement in the Northern Azerbaijan, the increase in social and political activity among Azerbaijani Turks and the creation of organizations claiming to lead the national movement were watched with great concern. The main issue that attracted neighbour's attention was the question of Azerbaijan's autonomy. The raising of the issue of "autonomy of Azerbaijan" by the Azerbaijani national democratic circles resonated in Iran from the very first day. The idea of Azerbaijan's autonomy was sharply criticized both in the correspondence of Iranian diplomats serving in the South Caucasus, and in various press organs of this country. Many of those related materials were used in this research.*

***Keywords:*** *the Northern Azerbaijan, Iran, revolution, political situation, Iranian press*

## Giriş

Türkmənçay sülh müqaviləsinin (1828) imzalanması ilə Azərbaycanın cənub hissəsinə yiyələnən İran üçün sözsüz ki, Azərbaycanın şimalında baş verən hadisələrin hansı istiqamətdə inkişaf edəcəyi mühüm əhəmiyyət daşıyırdı. Xüsusən, bu hadisələr milli oyanışla bağlı olduqda təhlükəli xarakter ala bilərdi. 1917-ci il rus inqilabı isə Azərbaycanda milli hərəkata təkan verməklə burada məhz belə bir siyasi vəziyyət yaratmışdı. Bütövlükdə Türkmənçay sülhündən sonra Rusiyanın hakimiyyəti altına düşən Şimali Azərbaycanda da sosial-iqtisadi inkişaf Rusiyadakı ictimai-siyasi proseslərdən asılı idi. XX əsrin əvvəllərində Azərbaycanda müstəmləkə üsul-idarəsi getdikcə daha da sərtləşməkdə idi. Əsrin əvvəllərində baş verən

ümumi iqtisadi böhran burada əhalinin vəziyyətini ağırlaşdırırdı. Lakin eyni zamanda bu dövrdə Şimali Azərbaycanın təsərrüfat həyatında kapitalist istehsal münasibətlərinin inkişafı prosesi də gedir, yenicə təşəkkül tapan milli burjuaziyanın da iqtisadi gücü və ictimai fəallığı artırmaqda idi. Başqa sözlə, rus kapitalizminin milli ucqarların iqtisadiyyatını özünə tabe etdirməsi, çarizmin iqtisadiyyat sahəsindəki ayrı-seçkilik siyasətinə baxmayaraq, milli burjuaziya inkişaf edirdi. XX əsrin əvvəllərində milli burjuaziyanın ən görkəmli nümayəndələri kimi Hacı Zeynalabdin Tağıyevi, Musa Nağıyevi, Şəmsi Əsədullayevi, Murtuza Muxtarovu və başqalarını misal göstərmək olar. İqtisadi cəhətdən güclənən milli burjuaziya Azərbaycan zəhmətkeşlərinin sosial həyatında müsbət rol oynayırdı. Milli sahibkarların azərbaycanlı fəhlələrin güzəranının yaxşılaşdırılması üçün öz müəssisələrində ilk növbədə onları işə götürürdülər. Bu zaman rus və qeyri millətlərdən olan fəhlələrlə təmasda olmaq tədricən azərbaycanlı fəhlələrin də ictimai fəallığına yol açırdı.

Şimali Azərbaycanda XIX əsrin ortalarından başlayan milli-maarifçilik hərəkatının bu dövrdə daha da güclənməsi ölkədə demokratik ruhlu milli burjuaziyanın formalaşmasına və azərbaycanlılar arasında milli şüurun inkişafı prosesinin sürətlənməsinə təsir edirdi. Milli burjuaziya və ziyalıların diqqətini daha çox çarizm müstəmləkəsi altında olan xalqın problemləri cəlb edirdi. Azərbaycan cəmiyyətinin yüksək dairələrinin nümayəndələri idarə orqanlarında milli burjuaziyanın iştirakına qoyulan məhdudiyyətləri ləğv etməyə ciddi səy göstərirdilər (Azərbaycan tarixi, 2001. s.103). Xüsusən, 1905-1907-ci illər I Rus inqilabından sonra bu cəhdlər artmışdı. Baş verə biləcək hərəkatların qarşısını vaxtında almaq məqsədi ilə 1905-ci ilin fevralın 26-da Qafqaz canişinliyi yenidən bərpa edilmiş və canişin Vorontsov-Daşkova Qafqazda təxirə salınmadan dinclik yaratmaq vəzifəsi tapşırılmışdı (Azərbaycan tarixi, 2001). Buna baxmayaraq Azərbaycanda da sosial-ictimai hərəkətlənmə artmış və milli hərəkat başlamışdı.

**1.XX əsrin əvvəllərində Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət**

Azərbaycanda ilk ictimai-siyasi təşkilatlar bu inqilabdan öncə meydana çıxmışdı. 1902-ci ildə M.Ə.Rəsulzadə tərəfindən "Müsəlman gənclik təşkilatı", 1904-cü ildə "Hümmət" sosial-demokrat təşkilatı yaradılmışdı. İnqilabın yaratdığı şərait isə azərbaycanlıların siyasi təşkilatlanması prosesi daha da gücləndirmişdi. Azərbaycan ziyalıları hələ çox cəsarətli tələblərlə çıxış etməsələr də, müstəmləkə zülmündə olan xalqın bəzi hüquqlarınının təmin edilməsinə nail olmağa çalışırdılar. 1905-ci ilin əvvəlində Ə.M.Topçubaşovun imzası ilə çar hökumətinə bəyannamə də ünvanlanmışdı. Bu zaman çarizmin yerli hakimiyyətinin "parçala və hökmranlıq et" prinsipini tətbiq etməsi ilə 1905-1906-cı illərdə Azərbaycanın Bakı, Qarabağ,

Naxçıvan və s. ərazilərində ermənilər tərəfindən müsəlman əhalinin qırğını həyata keçirilmişdi. Məhz bundan sonra yeni ictimai-siyasi təşkilatlar yaradılmışdı. 1905-1908-ci illərdə Gəncədə "Qeyrət" qrupu, 1905-ci ilin oktyabrında Şuşada "Difai" təşkilatları, 1907-ci ildə "Müdafiə" və "İttifaq" təşkilatları yaranmışdı. 1911-ci ildə isə "Müsavat" partiyasının meydana gəlməsi isə Azərbaycan milli hərəkatının ən mühüm hadisəsi hesab edilə bilər. Bu dövrdə Azərbaycan milli hərəkatında aydın şəkildə iki–liberal və radikal istiqamətlər özünü göstərirdi.

Milli şüurun inkişafının nəticəsi idi ki, Azərbaycan ziyalıları Cənubi Azərbaycanda gedən ictimai-siyasi proseslərə də biganə qalmırdılar. İranda Məşrutə inqilabı gedişində bu özünü daha qabarıq göstərmişdi. Azərbaycan ziyalıları M.Ə.Sabir, N.Nərimanov, Ü.Hacıbəyov, H.Minasazov, M.Ə.Rəsulzadə və digərləri Səttarxanın başçılığı ilə xalq hərəkatına rəğbət bəsləyir və onu müdafiə edirdilər. 1909-cu ildə İrana mühacirət edən M.Ə.Rəsulzadə orada "İrane-noy" qəzetini nəşr etdirmişdi. 1905-ci il İran inqilabının başlanması ilə "Hümmət" təşkilatının fəaliyyəti genişlənərək daha da populyarlaşmışdı.

I. Dünya müharibəsi Şimali Azərbaycanda sosial-ictimai vəziyyətə, ictimai və milli şüurun inkişafına ciddi təsir etdi. Burada hərbi əməliyyatlar getməsə də, müharibənin təsiri aydın hiss edilirdi. Tərəqqipərvər Azərbaycan ziyalıları zahirən hökumətə loyallıqlarını saxlayaraq, bu müharibənin nəticələrini öz xalqı üçün maksimum əlverişli məcraya salmağa ümid edirdilər.

## 2.Fevral inqilabından sonra Azərbaycanda siyasi vəziyyət

Azərbaycanda mühüm siyasi dəyişikliklərin baş verməsi yalnız Rusiyada 1917-ci il Fevral inqilabı ilə bağlı oldu. Rusiyada çarizmin devrilməsi Azərbaycanda milli-demokratik hərəkatın yüksəlişinə təkan verdi. İnqilabın təsiri ilə Cənubi Qafqaz xalqlarında muxtariyyətə meyl artdı, xüsusən də milli partiya və təşkilatların fəaliyyəti qanuniləşdirildi. Fevral inqilabı Azərbaycanda ictimai-siyasi təşkilatların fəaliyyətinə geniş imkan yaratdı. İnqilabdan dərhal sonra Bakıda müxtəlif milli siyasi təşkilatlar, neft sənayeçiləri ittifaqı və digər qruplar yarandı. Gizli fəaliyyət göstərən təşkilatlar açıq fəaliyyətə keçdilər. Bütün bu ittifaq və təşkilatları idarə etmək üçün Bakı İctimai Təşkilatların İcraiyyə Komitəsi yarandı. İcraiyyə Komitəsində azərbaycanlıların nümayəndəsi kimi M.Ə.Rəsulzadə və M.H.Hacınski təmsil edilirdi (Həsənli, 2009, s. 20). Rusiyanın başqa yerlərində olduğu kimi, Azərbaycanda da gizli fəaliyyət göstərən siyasi partiyalar, təşkilatlar fəallaşdı və yeniləri yaradıldı. Bakı ilə yanaşı bölgələrdə də fəaliyyət göstərən siyasi partiya və təşkilatları vahid mərkəzdən idarə etmək məqsədlə 1917-ci il martın 27-də siyasi xadimlər tərəfindən Bakıda demokratik əsaslarda Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsi yaradıldı. M. Hacınski komitənin sədri, M.Ə.Rəsulzadə isə sədr müavini seçildi. Yeni təşkilatda Azərbaycanın müsəlman əhalisinin bütün təbəqələri,

siyasi partiya və təşkilatları təmsil olunurdu (Həsənli, 2009). Açıq fəaliyyətə başlayan və Azərbaycan cəmiyyətində sosial-sinfi mənsubiyyətindən asılı olmayaraq bütün təbəqələri özündə birləşdirən "Müsavat" partiyası tezliklə ölkənin ən güclü siyasi partiyasına çevrildi. Partiya Rusiyada demokratik federativ respublika yaradılması və Azərbaycana onun daxilində milli-ərazi muxtariyyəti verilməsi tələbini irəli sürürdü. 1915-ci ilin oktyabrın 2-də M.Ə. Rəsulzadə redaktorluğu nəşrə başlayan "Açıq söz" qəzeti partiyanın rəsmi orqanı olaraq milli özünüdərketmənin oyadılması prosesində mühüm rol oynayırdı.

Qafqaz müsəlmanlarının aprel ayının 15-dən 20-dək Bakıda keçirilən qurultayında ilk dəfə Şimali Azərbaycanda milli-ərazi muxtariyyəti ideyası müzakirəyə çıxarıldı. Qeyd etmək lazımdır ki, qurultay təkcə azərbaycanlıların deyil, eyni zamanda Rusiya müsəlmanlarının siyasi həyatında mühüm rol oynamışdı. Eyni ideya daha sonra 1917-ci il may ayının 1-dən 11-nə qədər Moskvada keçirilmiş Ümum-Rusiya Müsəlmanlar qurultayında da səsləndirilmiş və bu barədə qətnamə qəbul edilmişdi. Qurultayda çıxış edən M.Ə.Rəsulzadə bildirmişdi: "Rusiyanın müsəlman xalqlarının mənafeyini ən yaxşı təmin edən dövlət quruluşu forması ərazi-federasiya prinsiplərinə əsaslanan demokratik respublikadır" (Əzizov, 1997). Qurultayda həmçinin milli məktəblərin dövlət tərəfindən müdafiəsi, ana dilində universitetin təsis edilməsi, müsəlman əhalinin siyahıya alınması və s. məsələlər də irəli sürülmüşdü. 1917-ci ilin oktyabrında Rusiyada bolşeviklərin hakimiyyətə gəlməsi bütün Qafqazda, o cümlədən Azərbaycanda hadisələrə ciddi təsir etdi. Bolşeviklərin millətlərin öz müqəddəratını təyin etmək hüququ barədə bəyannaməsi xalqların milli müstəqilliyə olan ümidlərini artırdı.

Bu zaman Azərbaycan milli-demokratik hərəkatında aparıcı qüvvə "Müsavat" partiyası idi. Partiyanın 1917-ci il oktyabrın sonunda Bakıda keçirilən birinci qurultayında Azərbaycana milli ərazi muxtariyyəti verilməsi məsələsinin taktiki və strateji istiqamətləri müəyyən edilmişdi (Həsənli, 2009). Demokratik Rusiya tərkibində muxtariyyətə nail olmaq istəyən partiya tezliklə Bakıda bolşeviklərin əsas rəqibinə çevrildi. Məhz "Müsavat" partiyasının möhkəmlənməkdə olan mövqeyi İran siyasi dairələrini narahat etməyə başlamışdı.

### 3.Fevral inqilabından sonra İranın Şimali Azərbaycana dair siyasi mövqeyi

Türkmənçay müqaviləsi imzalandığı vaxtdan 1917-ci ilə qədər Şimali Azərbaycan Qafqazın tərkibində Rusiyanın bir əyaləti hesab edildiyindən İranla Şimali Azərbaycanla bağlı dövlət səviyyəsində siyasətindən danışmaq olmazdı. Doğrudur, İranın Qafqazdakı diplomatik təşkilatlarından, nisbətən müstəqil qurum kimi, Tiflisdə baş konsulluğu, Bakıda və İrəvanda konsulluqları həmçinin Vladiqafqazda, Batumda konsulluqları və bir sıra Bakı ətrafdakı məntəqələrdə, Sabunçuda ayrıca nümayəndəlikləri var idi. Lakin bu konsulluq və

nümayəndəliklərin hamısı Tehranla Petroqradın siyasətinə tabe idi. 1917-ci il Rusiya inqilabından sonra isə vəziyyət tamamilə dəyişildi. Hakimiyyətin dəyişməsi ilə iki ölkə arasındaki siyasi münasibətləri tənzimləyən İranın Petroqraddakı və Rusiyanın Tehrandaki səfirlikləri öz əvvəlki əhəmiyyətini itirdi.

Qeyd edildiyi kimi, bolşeviklərin siyasi şüarları İran hakimiyyəti üçün cəlbedici və ümidverici idi. Bu dövrdə hələ bolşevik Rusiyasının möhkəmlənə bilmədiyi Qafqaz ərazisi bölgənin əsas dövlətlərindən biri kimi İranın da maraq dairəsinə daxil idi. Qafqazda muxtar siyasi qurumların yaranmasına geniş imkanlar var idi və bu qarşısıalınmaz proses idi. İran diplomatiyası da baş verən hadisələrə biganə qalmayıb, regionda öz mənafeyini güdən başqa dövlətlər kimi yeni yaranmış vəziyyətə uyğun fəaliyyətə başladı. İran hökuməti Qafqazda qarşıda baş verə biləcək hadisələrə hazır olmaq üçün İran XİN-də mühüm diplomatlarından biri hesab olunan Əliməhəmməd xan Şərif-əd-dövləni Tiflisin Baş konsulu vəzifəsinə təyin etmişdi. Şərif -əd-dövlə nazirliyin Azərbaycan şöbəsinin rəhbəri vəzifəsində işlədiyi dövrdən sona qədər regionda baş verən hadisələrdən hər zaman xəbərdar idi. Bu səbəbdən də hesab etmək olar ki, İranın Qafqazdakı diplomatik təşkilatları baş verə biləcək hadisələrin qarşısını almaq üçün siyasi-diplomatik cəhətdən hazırlığa malik idilər.

Yeni şəraitdə Şimali Azərbaycanda başlanan milli demokratik hərəkatın İranın cənubuna sirayət edəcəyi şübhəsiz ki, İran hakimiyyətini də düşündürürdü. İran hakimiyyətinin Qafqazdakı rəsmi və səlahiyyətli nümayəndələri ilə yazışmaları İranın bölgədə baş verən proseslərə marağını göstərir. İranın Tiflisdəki Baş Konsulunun Qafqazdakı siyasi vəziyyətlə bağlı öz hökumətinə verdiyi məlumatında qeyd edilirdi: “Hazırda Qafqazda siyasi vəziyyət sabitdir və bütün işlər mərkəzin nəzarətindədir. İnsanları yalnız ərzaq qıtlığı narahat edir” (Kaveh, 1380). Ümumiyyətlə isə, I. Dünya müharibəsinin sonuna yaxın Qafqaz, xüsusən də Bakı şəhəri geostrateji baxımdan mühüm əhəmiyyət kəsb edərək Antanta və Dördlər ittifaqına daxil olan dövlətlərin diqqətini özünə cəlb etmişdi. Bu amil də regionda baş verən siyasi hadisələrə, həmçinin İranın Qafqazla bağlı mövqeyinə və siyasi davranışına da öz təsirini göstərmişdi.

Bəhs olunan dövrdə İranın Azərbaycanla bağlı mövqeyi və fəaliyyəti daha çox İran ictimai və siyasi dairələrinin Azərbaycandakı ictimai-siyasi hadisələrə münasibətində özünü büruzə verirdi. Başqa sözlə, İran hakimiyyətinin Azərbaycana münasibətini buradakı İran təbəələrinin Azərbaycan ictimai-siyasi qüvvələrinə qarşı münasibəti prizmasından müşahidə etmək mümkündür. Fevral inqilabından sonra yaranmış qeyri-stabil dövrdə İran təbəələrinin problemləri, onların davranışları ilə əlaqədar İran hakimiyyəti Qafqazla və xüsusən Azərbaycandakı siyasi və inzibati hakimiyyətlə münasibətlərdə idi. Bu zaman İran təbəələrinin

ən çox məskunlaşdığı yer Bakı şəhəri idi. Bakıda çoxminlik İran təbəələrin yaşaması bir növ İran ictimai və siyasi dairələrini Azərbaycanla bağlamış olurdu. Burada müxtəlif təbəqədən olan İran təbəələri yaşayırdılar.

**4.İranlıların Şimali Azərbaycanda siyasi fəaliyyəti**

Siyasi partiyalara gəldikdə isə, ilk olaraq iranlı fəhlələr təşkilatlanmışdılar. Əsrin əvvəllərində Qafqaz müsəlmanları arasında partiya və siyasi ab-hava yaranıb inkişaf etməsinə Bakının neft sənayesi fəhlələri arasında geniş yayılmış rus sosial-demokrat təşkilatlarının fəaliyyəti təsir etmişdi. Eləcə də burada yaşayan iranlı fəhlələr bu təsir altına düşmüşdülər. Nəticədə "Ədalət" təşkilatı meydana çıxmışdı. Hələ 1916-ci ildə Bakıda neft sənayesində çalışan iranlı mühacir fəhlələrin tərəfindən yaranan "Ədalət" təşkilatı 1917-ci ilin mayından açıq fəaliyyətə keçmişdi. Partiyaya əslən Ərdəbildən olan Əsədulla Qafarzadə başçılıq edirdi. Siyasi cəhətdən bolşevik xəttini götürən təşkilatın həm də təhsil və mədəniyyətlə bağlı şöbələri var idi. Partiyanın mərkəzi Bakının Sabunçu qəsəbəsində iranlılara məxsus "Təməddün" məktəbində yerləşirdi. 1918-ci ilin əvvəllərində təşkilatın müxtəlif yerli şöbələri yaradılmışdı. Onun mətbu orqanı kimi Azərbaycan və fars dillərində "Ədalət" qəzeti və "Beyrəqi-Ədalət" jurnalı çap edilirdi. Həftəlik ictimai-siyasi, iqtisadi və ədəbi jurnalın redaktoru Ə.Qafarzadə idi. "Beyrəqi-ədalət" jurnalı təkcə Azərbaycanda və İranda deyil, eləcə də Cənubi Qafqazın müxtəlif yerlərinə geniş yayılmaqla cənubi azərbaycanlı fəhlələr arasında bolşevizm ideyalarını təbliğ edirdi. Təşkilatın silahlı dəstələri də var idi.

İran hökumət nümayəndələrinin fəhlələrə qarşı özbaşınalığının şahidi olan "Ədalət" təşkilatının İran konsulluğu ilə münasibətləri gərgin idi. Belə ki, 1917-ci ilin martında hətta "Ədalət" partiyasının yerli komitəsi iranlı fəhlələrin yaşadığı məhəllədə konsul müavinini qovaraq Ə.Qafarzadə vasitəsi ilə konsul müavini vəzifəsini ələ keçirmişdi. Konsul məcburi bunu qəbul etməli olsa da tacirlər təcili tədbir görülməsini tələb edirdilər (Pişəvəri, 1984). Nəticədə İsmailiyyə binasında İran təşkilatlarının iştirak etdiyi yığıncaqda silahlı atışma olmuşdu. Nəhayət, 1917-ci ilin may ayının 17-də Said -ol- Vezare İranın Bakıdakı Konsulluğuna müavin təyin olundu. Onu bu vəzifədən uzaqlaşdırmaq üçün nə qədər cəhdlər edilsə də, Said -ol- Vezare Bakıda yaşayan iranlıların himayəsinə arxalanaraq öz vəzifəsində qalmışdı.

Liberal və ziyalı iranlı mühacirlər isə Bakıda İDP-nin yerli şöbəsini yaratmışdılar. Cənubi Azərbaycan tarixi üzrə mühüm tədqiqatçı olan Ş.Tağıyeva qeyd edir ki, Bakıda yaradılan İDP-nin Xiyabaninin başçılıq etdiyi Azərbaycan Demokrat Firqəsinin (Partiyasının-S.M.) Bakı komitəsi idi və onu "İttihadi İraniyan" məktəbinin müəllimləri yaratmışılar

(Tağıyeva, 1990). Hacı Mirzə Tağı Cəfərzadə, Mirzə Abdulla Abdullazadə, Əjdər Əlizadə, Mirzə Bağır onun fəal üzvlərindən idilər. Qeyd etmək lazımdır ki, bu təşkilat Bakıda ciddi şəkildə "Müsavat" partiyasına müxaliflik edirdi.

İDP və "Ədalət" təşkilatından başqa konsulluq və iri tacirlər tərəfindən "İstiqlali-İran və İttihadi İslam" adlı partiya da yaradılmışdı. Üzvləri az olsa da bu təşkilatın maliyyə gücü böyük idi. Konsulluq bu partiyanı öz bayrağı altına alaraq "Ədalət"ə qarşı istifadə edirdi (Pişəvəri, 1984, s. 50).

**5.İranın "Azəbaycan muxtariyyəti" məsələsinə münasibəti mətbuatda**

Bəhs olunan dövrdə İran dairələrinin diqqətini cəlb edən əsas məsələ Azərbaycanın muxtariyyəti məsələsi idi. Fevral inqilabından sonra Azərbaycanın milli demokratik qüvvələri tərəfindən "Azərbaycan muxtariyyəti" məsələsinin irəli sürülməsi ilk gündən İranda böyük əks-səda doğurmuşdu. 1917-ci ilin aprelin 2-də N. Yusifbəyli Gəncədə təşkil olunmuş mitinq zamanı "Yaşasın Azərbaycan muxtariyyəti!", "Yaşasın Demokratik Respublika" şüarlarını səsləndirmişdi (Rüstəmova-Tohidi, 2018). Muxtariyyət məsələsi Nəsib bəy tərəfindən Gəncədə yaradılan Türk Ədəmi-Mərkəziyyət partiyasının qəbul etdiyi 9 bölmədən ibarət proqramın birinci bölməsində də qeyd olunmuşdu. 1917-ci ilin 10-15 aprel tarixlərində Bakıda Qafqaz müsəlmanlarının, 1-11 may tarixlərində Moskvada keçirilən ümum-Rusiya müsəlmanlarının qurultaylarında isə milli hərəkatın lideri M.Ə.Rəsulzadə artıq "Azərbaycan muxtariyyəti" ideyasını milli azadlıq mübarizəsinin əsas şüarı kimi gündəmə gətirmişdi. Rusiyadakı Oktyabr çevrilişindən sonra o, "Açıq söz" qəzetində yazdığı məqalələrdə azərbaycanlılar yaşayan ərazilərin tarixən "Azərbaycan" adlanması fikrini tez-tez səsləndirirdi. Azərbaycanda başlanan milli-demokratik hərəkat Azərbaycan muxtariyyəti ideyasının reallaşmasına doğru aparmaqda idi. Həmin vaxt bu məsələyə ilk reaksiya İranın Qafqazdakı diplomatik nümayəndəliklərindən gəlmişdi. 1917-ci il noyabrın əvvəlində İranın Tiflisdəki baş konsulu Əli Məhəmməd Şərif əl-Dövlə İran XİN-ə göndərdiyi teleqramında yazırdı: "Xeyli vaxtdır Qafqaz müsəlmanları, ermənilər və gürcülər kimi, daxili müstəqilliklərini saxlamaqla yanaşı istəyirlər ki, bir türk hökuməti yaratsınlar. Hazırda Azərbaycanın muxtariyyəti məsələsi bəzi dairələrdə müzakirə olunur. Bu türk müsəlman dövlətinin istiqaməti gələcəkdə Osmanlı dövlətinə oxşar olacaqdır. Təbliğatçılar isə bu barədə təşviqat aparmaqdan yorulmurlar" (Kaveh, 1380). Təbii ki, Qafqazın cənub-şərqində gələcəkdə Osmanlı dövlətinə bənzər bir türk dövlətinin yaranması məsələsi İran dövlətinin siyasətinə uyğun deyildi. Şərif əl-Dövlə İran XİN-ə Müsavat partiyasının ideyalarının qarşısını almaq üçün Qafqazdakı iranlıları və partiyaları himayə etməklə bağlı təklif irəli sürmüşdü. Şərif-əd-dövləyə görə, Qafqaz müsəlmanlarının bir hissəsi ilə əlaqələr və

yaxın münasibətlər qurmaq, Azərbaycanda və Qafqazda fars dilini yaymaq üçün yeni tədbirlərin görmək lazım idi.

İlk gündən İranın rəsmi və qeyri-rəsmi mətbu orqanları da bu barədə öz mövqelərini bildirərək silsilə yazılar dərc etməyə başlamışdı. Bir-birinin ardınca “Rəd”, “İran”, “Sitareyi-İran”, “Zəban-e azad”, “Cəngəl” qəzetlərində bu məsələ ilə bağlı məqalələr çap olunmuşdu. “Rəd” qəzeti məsələni araşdırmağa, oxucularına daha düzgün informasiya verməyə çalışırdısa, digər qəzetlərdə ittiham ritorikası daha güclü idi. Bu yazılarda həm Azərbaycan adı, həm də Azərbaycan milli demokratlarının mövqeyi ciddi tənqid hədəfinə çevrilmişdi. Qərəz və ittihamlarla və dolu bu yazılar qarşı tərəfin tutarlı cavab verməsini zəruri edirdi ki, Azərbaycan ziyalıları da mətbuat səhifələrində bunu edirdilər.Azərbaycanla bağlı İranın narahatlığına səbəb olan fikirlər “Müsavat” partiyasının lideri M.Ə.Rəsulzadə tərəfindən gündəmə gətirildiyindən İran mətbuatının da əsas hədəfi “Müsavat” partiyası və onun lideri olmuşdu.

“İrşad” qəzetində çap olunan məqalədə ərazi məsələsinə toxunulduğundan “Müsavat” partiyasının Rəşt şöbəsi İran ictimaiyyətini Qafqaz Azərbaycanının sərhədləri ilə müfəssəl tanış etmişdi. Komitənin 1917-ci ildəki qəbul etdiyi bəyannaməsində Qafqaz Azərbaycanının sərhədləri şərqdən Xəzər dənizi, qərbdən Gürcüstan, şimaldan Dağıstan dağları və cənubdan Araz çayının şimalı ilə həmsərhəd olduğu göstərilirdi. Bəyannamədə Bakı, Gəncə, İrəvan və ətrafları üçün müstəqillik tələbi Cənubi Azərbaycan və ya İrana qarşı heç bir ərazi iddiasının olmadığı açıq şəkildə görünürdü (Ra'ad, No. 61, 23 Rabi Al-Thani 1336 / 17 Delu 1296).

Lakin sözügedən bəyannamədən sonra İran mətbuatında “Müsavat” partiyasına qarşı təbliğatı daha da güclənmişdi. “Novbahar” qəzetinin 15 yanvar 1918-ci i tarixli sayında “Müsavat” partiyası nədir və nə deyir?” başlıqlı yazının müəllifi Məliküşşüarə Bahar “Müsavat”ın osmanlılarla birləşib türk dövləti yaratmasını təxmin edir və böyük türk dövlətini yaratmaq həmişə türklər üçün həyata keçməyən bir arzu olaraq qalacağını bildirirdi. Onun fikrincə, azərbaycanlılar türk dilində danışsalar da onların qanı türk qanı deyildir. Bahara görə Azərbaycan ta qədimdən Midiya dövlətinin mərkəzi olmuşdur. O belə təsəvvür edirdi ki, bir gün azərbaycanlılar yaratdıqları bu hökuməti Türkiyəyə bağışlayacaqlar. M. Bahar azərbaycanlıları dil baxımından türk, soykökü baxımından fars elan edərək Azərbaycan türkləri əvəzinə Qafqasiya müsəlmanları ifadəsini işlətməyi məsləhət görürdü (Rüstəmova-Tohidi, 2018, s. 189).

Yeri gəlmişkən, Bakıda iranlı mühacirlərin də məsələyə münasibəti maraq doğurur. Onların İDP-nın təsir dairəsində olan hissəsi bu məsələni aydınlaşdırmağa çalışmışdı. Bakıda olan ADF-nin yerli komitəsi “Müsavat” partiyasının təbliğ etdiyi “Azərbaycan muxtariyyatı”

ideyasına qarşı məhz bu təşkilat kəskin etirazını bildirmişdi. S.C. Pişəvərinin əsərindən məlum olur ki, "Müsavatın" Azərbaycan muxtariyyəti şüarına qarşı çıxan təşkilat hətta öz mətbu orqanının adını "Azərbaycan-cozv-e layənfəki İran" adlandırmışdı (Pişəvəri, 1984, s. 50).

Said ol-Vezəra 1918-ci il yanvar 16-da Bakıdan İran XİN-ə verdiyi məlumatda bu barədə yazırdı: "....baş verən hadisələri Qafqazın, xüsusən Bakının indiki vəziyyətini nəzərə alaraq burada yaşayan iranlılar bir qəzet nəşr etmək istəyirlər. Qəzetin adı "Azərbaycan" və onun altında –"Azərbaycan İranın ayrılmaz hissəsidir" yazılmalıdır. Qəzetin nəşrində əsas məqsəd Qafqaz əhalisinin bəzi məqsədlərinin qarşısını almaq və iranlıların ümümi fikirlərini yaymaqdır. Qəzet fars dilində nəşr olunmalıdır ki, insanlar yavaş-yavaş öz əcladları, ata-balaları və milli dilləri ilə tanış olsunlar..." (Kaveh, 1380). O, axırda xahiş edirdi ki, XİN teleqraf vasitəsi ilə bu qəzet haqqında və sair məsələlər barədə öz mövqeyini konsulluğa çatdırsın.

İran XİN belə bir qəzetin təsis olunması haqqındaki fikirləri müsbət qarşılasa da, teleqraf vasitəsilə Qafqazın bir sıra təşkilatları və partiyalarının proqramında Azərbaycan barəsində müəyyən fikirlərin və bəzi başqa məsələlərin olduğunu nəzərə alaraq konsulluğu bu işdə çox diqqətli olmağa çağırırdı (Kaveh, 1380). Nəşrdə "Azərbaycan" adı və "Azərbaycan İranın ayrılmaz hissəsidir" (Bayat, Kaveh, 1380). sözləri münasib sayılmasa da, qəzetin birinci nömrəsi 10 fevral 1918-ci ildə həmin adla iranlılara məxsus "Novruz" mətbəəsində həftədə iki dəfə olmaqla çap olunmuşdu.

## Nəticə

Rusiyada baş vermiş 1917-ci il Fevral inqilabından sonra İranın ictimai və siyasi dairələri Azərbaycanda baş verən hadisələri diqqətlə izləyirdilər. Şimali Azərbaycanda, xüsusən də Bakıda minlərlə İran təbəəsinin yaşaması da İran dövlətinin buraya diqqət yetirməsini labüd edirdi. Bu zaman Azərbaycan milli demokratik hərəkatının reallaşdırmağa çalışdığı müxtariyyət ideyası İranı hakimiyyətini və millətçi dairələrini ciddi narahat etmişdi. İran mətbuatının bu məsələyə geniş yer verməsi bu münasibətin göstəricisi idi. Bu dövrdə İranın Bakıda konsulluğu baş verən hadisələr barədə İran hakimiyyətini vaxtında məlumatlandırmağa çalışırdı. Eyni zamanda Azərbaycan ictimai-siyasi xadimləri, partiya və təşkilatları da İranda baş verən hadisələrə həssaslıqla yanaşırdılar. Bu özünü həm oradakı azərbaycanlılara qarşı haqsızlıqlara, həm də imperialist dövlətlərin İran dövlətindəki fəaliyyətinə qarşı münasibətdə göstərirdi.

## Ədəbiyyat

*Azərbaycan tarixi*. (2001). (7 cilddə])(1900 – 27 fevral – 1920). C.5, Elm.

Əzizov, T.Ə. (1997). *Azərbaycan XX əsrin əvvəllərində: ümumi tarixi icmal.* Bakı.

Həsənli, C. (2009). *Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920).* Garisma.

Pişəvəri, M.C. (1984). *Seçilmiş əsərləri.* Azərnəşr.

Rüstəmova-Tohidi, S. (2018). *Cümhuriyyətin "Azərbaycan" adlandırılması və onun tarixi əhəmiyyəti*. Bakı.

Tağıyeva, Ş.Ə. (1990). *1920—ci il Təbriz üsyanı*. Elm.

Ra'ad, No. 61, 23 Rabi Al-Thani 1336 / 17 Delu 1296.

Kaveh, B. (1380). Qafqaz üzərində fırtına, 1918-1921-ci illərdə müstəqilliyin ilk dövründə İran və Azərbaycan Respublikası, Ermənistan və Gürcüstan arasında regional münasibətlərə baxış, Diplomatik Qeydlər və Tarix Mərkəzi (Xarici İşlər Nazirliyi), Xarici İşlər Nazirliyi.